**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNIVERSITETI**

**Magistratura pilləsi üçün**

**İXTİSAS: 060112 - COĞRAFIYA MÜƏLLIMLIYI**

# İF-M 10458 "COĞRAFIYA KURIKULUMU"

**fənninin**

# P R O Q R A M I

**Bakı Dövlət Universiteti TMŞ yanında Tədris vəsaitlərinə nəşr hüququnun (qrif) verilməsi üzrə daimi fəaliyyət göstərən Komissiyanın qərarı ilə təsdiq edilmişdir ( protokol № )**

**Bakı 2016**

# COĞRAFIYA KURIKULUMU

## İzahat vərəqi

« Coğrafiya kurikulumu» fənni "Coğrafiya müəllimliyi" istiqamətində «Coğrafiyanın tədrisi metodikası və metodologiyası» ixtisası üzrə magistratura pilləsində I kursun I semestrində 45 saat (30 saat – mühazirə, 15- laboratotiya işi ) həcmində tədris edilir. «Coğrafiya kurikulumu» kursunun tədrisinin sonunda tələbələr:

***Bilməlidir:***

- kurikulumun mahiyyətini izah etməyi;
- kurikuluma verilən tələbləri təhlil etməyi;
- coğrafiya fənninin əhəmiyyəti əsaslandırmağı;
- coğrafiyanın məqsəd və vəzifələrini təhlil etməyi

***Bacarmalıdır:***

- fiziki və iqtisadi coğrafi biliklərin sintezini yaratmağı;
- konstruktiv bilikləri təqdim etməyi;
- coğrafi anlayışları siniflər üzrə paylamağı;
- kurikulumda şagirdlərin təfəkkürünün inkişaf etdirmək bacarıqlarına

***Yiyələnməlidir:***

- pedaqoji subyektlərin bir-biri ilə demokratik münasibət formalarına;
- kurikulumun tələblərinin coğrafiya dərsliklərində əks edilməsinin təhlil edilməsini izləməyə;
- coğrafiya kurikulumda və yeni təlim strategiyalarının tətbiq etməyə;
- Coğrafiya kurikulumunda təlim nəticələri və qiymətləndirmə meyarlarını əlaqələndirməyə

Proqram həmdə magistr dissertasiyası üzərində müstəqil tədqiqatlar aparılmasında yardımçı vasitə rolunu oynaya bilər

### Mövzülar üzrə saatların paylanması

| № | Mövzular | cəmi | Ocümlədən | |
|---|---|---|---|---|
| | | | müh. | sem. |
| 1. | Kurikulumun mahiyyəti. Kurikulumun növləri | 2 | 2 | |
| 2. | Coğrafiya fənni kurikulumunun xarakterik cəhətləri | 4 | 2 | 2 |
| 3 | Coğrafiya fənninin əhəmiyyəti, məqsəd və vəzifələri | 2 | 2 | |
| 4 | Coğrafiya təliminin məzmunu | 4 | 2 | 2 |
| 5 | Məzmun xəttinin , əsas və alt standartların təhlil | 4 | 2 | 2 |
| 6 | Coğrafiya kurikulumunda anlayışların paylanması. | 2 | 2 | |
| 7 | Coğrafiya kurikulumunda konstruktiv coğrafi | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| | biliklərin mahiyyəti. | | | |
| 8 | Coğrafiya kurikulumunda coğrafi biliklərin tətbiq imkanları | 2 | 2 | |
| 9 | Coğrafiya kurikulumunda şagird təfəkkürünün inkişaf imkanları | 4 | 2 | 2 |
| 10. | Coğrafi biliklərin dərketmə yollarının kurikulumda əhatə olunması | 2 | 2 | |
| 11 | Coğrafiya kurikulumunda inteqrasiya imkanları. | 2 | 2 | |
| 12 | Pedaqoji subyektlərin iki tərəfi. | 4 | 2 | 2 |
| 13 | Coğrafiya kurikulumdan coğrafiya dərsliklərinə doğru | 2 | 2 | |
| 14 | Coğrafiya kurikulumda və yeni təlim strategiyalarının tətbiqi | 4 | 2 | 2 |
| 15 | Coğrafiya kurikulumunda təlim nəticələri və qiymətləndirmə meyarları. | 3 | 2 | 1 |
| | Cəmi: | 45 | 30 | 15 |

**1. Kurikulumun mahiyyəti**. Kurikulumun növləri. Beynəlxalq, milli və məktəbdaxili kurikulumlar. Kurikulum əsas xüsusiyyətləri. Milli kurikulumun əsas prinsipləri. Kurikulumun şagirdlərdə təfəkkür, şəxsi keyfiyyət və qabiliyyətlərin inkişafında, bacarıqların qazanılmasındakı rolu. Əsas və metakompitensiyalar (1),(2),(3),(4),(5),(6).
**2. Coğrafiya fənni kurikulumunun xarakterik cəhətləri.** Fənn kurikulumunun strukturu və quruluşu. Müasir kurikulumun ənənəvi təhsil proqramından bir sıra üstünlükləri. Fənn kurikulumlarının səciyyəvi cəhətlərinin müqayisəli təsviri. Fənn kurikulumlarının tətbiqi (1),(2),(3),(5),(6).
**3. Coğrafiya fənninin əhəmiyyəti, məqsəd və vəzifələri.** Coğrafiya kurikulumunun şagirdyönümlü, nəticəyönümlü, şəxsiyyətyönümlü və tələbyönümlü xüsusiyyəti(1),(2),(3),(5),(6).
**4. Coğrafiya təliminin məzmunu**. Təhsilin əsas pilləsində coğrafiya fənnini məzmunu. Tam orta təhsil pilləsində coğrafiya fənninin məzmunu (1),(2),(3),(4),(5),(6).
**5. Məzmun xəttinin , əsas və alt standartların təhlili.**Məzmun xəttinin funksiyası. Coğrafiya və digər fənlərin məzmun xətləri. Əsas standartların mahiyyəti. Alt standartların mahiyyəti. Onların funksiyası. Məzmun standartalrının siniflər üzrə dəyişməsi(1),(2),(3),(4),(5).
**6. Coğrafiya kurikulumunda anlayışların paylanması.** Coğrafi anlayışların növləri. Anlayışların siniflər üzrə dəyişməsi. Standartlarda və dərsliklərdə coğrafi anlayışların təqdim edilməsi. Məzmun standartlarında coğrafi anlayış və terminlərin coğrafiya proqramı ilə müqayisəsi (1),(2),(3),(6).

**7. Coğrafiya kurikulumunda konstruktiv coğrafi biliklərin mahiyyəti.** Fiziki coğrafiyanın ənənəvi proqram və milli kurikulumda müqayisəsi. Coğrafiya kurikulumunda fiziki coğrafi biliklərin siniflər üzrə təhlili. Fiziki və iqtisadi coğrafi biliklərin sintezi (1),(2),(3),(6).
**8. Coğrafiya kurikulumunda coğrafi biliklərin tətbiq imkanları.** Praktik –tətbiqetmə baxımından kurikulumun mahiyyəti. Coğrafiya kurikulumunda şagirdlərin bilikləri tətbiq edilməsi imkanları. Biliklərin tətbiq edilməsində istifadə olunan metodlar. Coğrafi biliklərin tətbiq edilməsinin coğrafi düşüncə tərzinin yaradılmasında rolu(1),(2),(3).
**9. Coğrafiya kurikulumunda şagird təfəkkürünün inkişaf imkanları.** Hafizə və təfəkkür məktəbinin müqayisəsi. Mühafizəyə əsaslanan suallar və coğrafiya kurikulumunda əks olunması. Məntiqi təfəkkür fellərinin coğrafiya fənnində tətbiqi. Tənqidi təfəkkür felləri və coğrafiya tətbiqi. Yaradıcı təfəkkür fəaliyyəti. Müxtəlif tapşırıq növlərinin təqdim olunması (1),(2),(3),(6).
**10. Coğrafi biliklərin dərketmə yollarının kurikulumda əhatə olunması.** Coğrafi biliklərin dərketmə yolları. H.Qardnerin müxtəlif üsullarla dərketmə nəzəriyyəsi. Linqvistik/söz, Məntiqi/riyazi, Vizual/məkan, Bədən/kinestik, Musiqi/səs, Fərdlərarası, Fərddaxili, Naturalistik, (təbiət) dərketmələrinin coğrafiya kurikulumunda imkanları (1),(2),(3),(6).
**11. Coğrafiya kurikulumunda inteqrasiya imkanları.** İnteqrasiya anlayışı. Şaquli və üfüqi inteqrasiya. Fiziki, iqtisadi-sosial coğrafi və kartoqrafik biliklərin sintezi. Konstruktiv coğrafiya. İqtisadiyyat aid terminlərin qruplaşdırılması(1),(2),(3),(6).
**12. Pedaqoji subyektlərin iki tərəfi.** Kurikulumda təhsil verən və təhslialanların keyfiyyət göstəriciləri. Coğrafiya müəlliminin kurikulumun tətbiq edilməsində rolu. Coğrafiya müəlliminin fasilitator kimi fəaliyyəti (2),(3),(4),(5),(6).
**13. Coğrafiya kurikulumdan dərsliyə doğru.** Təlimin məzmunu və təlim nəticələrini dərslikdə ifadəsi. Dərsliyə verilən tələblər. Kurikulm üzrə yazılmış Coğrafiya dərsliklərinin təhlili. Milli kurikulmda əsas və alt standartların reallaşdırlıması (1),(2),(3),(6).
**14. Coğrafiya kurikulumda və yeni təlim strategiyaları**. Təlimin təşkilinə verilən yeni tələblər. Kurikuluma yanaşmasına görə təlim fəaliyyətinin planlaşdırılası. Təlim formalarının tətbiq ediləsi imkanları. Yeni təlim üsullarının tətbiqi (1),(2),(3),(4),(5).
**15. Coğrafiya kurikulumunda təlim nəticələri və qiymətləndirmə meyarları**. Coğrafiya kurikulumunda şagird biliklərinin qiymətləndirməsi imkanları. Biliklərin şifahi təqdimatı. Coğrafi biliklərin yazılı təqdim edilməsi imkanları. Coğrafiya kurikulumunda qiymətləndirmə meyarlarının mahiyyəti (1),(2),(3),(6).

## Ədəbiyyat

**Əsas**

1.Süleymanova A.Y, Təhsilin əsasları, Dərs vəsaiti Bakı "Təhsil" nəşriyyatı , 2014, 399 s.
2.Veysova Z. A. Fənn müəllimləri üçün ixtisasartırma təhsilinin 2-ci modulu üzrə "Ümummi orta təhsil səviyyəsi üçün yeni fənn kurikulumlarının tətbiqi Coğrafiya fənni üzrə təlimçilər üçün vəsait "İnkişaf" elmi mərkəzi, 2014, 168 s.
3. www. Kurikulum.az
4.Alxasov O.K. Coğrafiyanın tədrisi metodikası. Ali məktəb üçün dərslik , Bakı 2014
5. Seyfullayeva N.S. Coğrafiyanın tədrisi metodikası. Ali məktəb üçün dərslik ,Bakı, EMK nəşriyyatı. 2011. 489 s.

**Əlavə**

6. “Kurikulum” Elmi-metodik jurnalı.  2009, 152 s.